# ƏDLİYYƏ

www.justice.gov.az

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı

881 ÇAĞRI MƏRKƏZİ

№ 08 (245) avqust 2024


## Məhkəmə Ekspertizası Şurasının yaradılması haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı



Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Məhkəmə ekspertizası sahəsində (bundan sonra - müvafiq sahə) dövlət idarəetməsinin və tənzimləməsinin təkmilləşdirilməsi, məhkəmə ekspertizası fəaliyyətinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, habelə müvafiq sahədə vahid standartların hazırlanması və onların tətbiqinin təşviqi, kadr potensialının gücləndirilməsi məqsədilə aşağıdakı tərkibdə məşvərətçi əsaslarla fəaliyyət göstərən Məhkəmə Ekspertizası Şurası (bundan sonra - Şura) yaradılsın:

**Şuranın sədri**

Azərbaycan Respublikasının ədliyyə naziri

**Şuranın üzvləri:**

Azərbaycan Respublikası daxili işlər nazirinin müavini
Azərbaycan Respublikası müdafiə nazirinin müavini
Azərbaycan Respublikası səhiyyə nazirinin müavini
Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini
Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavini
Azərbaycan Respublikası Baş prokurorunun müavini
Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyəti sədrinin müavini.

2. Şura:

2.1. aşağıdakı məsələlərlə bağlı təkliflərini hazırlayıb altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

2.1.1. müvafiq sahənin inkişaf konsepsiyasının layihəsinə dair təkliflərini;

2.1.2. müvafiq sahədə dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin elektronlaşdırılmasının, ümumi məlumat və bilik bazasının formalaşdırılması və həmin bazadan istifadənin əlçatanlığının təmin edilməsi və bu kimi digər məqsədlərə nail olunması üçün vahid informasiya sisteminin yaradılmasına dair təkliflərini;

2.1.3. müvafiq sahədə dövlət orqanlarının (qurumlarının) fəaliyyət dairəsinin genişləndirilməsi imkanlarının təhlili əsasında təkliflərini;

2.1.4. ayrı-ayrı ekspertiza növləri üzrə vahid standartların müəyyən olunmasına dair təkliflərini;

2.1.5. müvafiq sahədə xüsusi təhsil proqramlarının (ixtisasların) açılması, habelə ali təhsil müəssisələrinin fəaliyyətinin məhkəmə ekspertizası fəaliyyəti ilə əlaqələndirilməsi imkanlarının təhlili əsasında təkliflərini;

2.1.6. özəl ekspertiza fəaliyyətinin təşviqi istiqamətində təkliflərini;

2.1.7. normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflərini;

2.2. fəaliyyətinə dair iş qaydasını bir ay müddətində təsdiq etsin;

2.3. müstəqil ekspertləri və mütəxəssisləri, habelə elmi müəssisələri (təşkilatları) öz fəaliyyətinə cəlb etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Şuranın təklifləri əsasında müvafiq sahənin inkişafı və müvafiq sahədə fəaliyyət göstərən dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin müasir standartlara uyğun həyata keçirilməsinin təmini üçün zəruri maliyyə vəsaitinin müvafiq illərin dövlət büdcəsi layihələrində nəzərdə tutulması üçün tədbirlər görsün;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 7 avqust 2024-cü il*

# Məhkəmə Ekspertizası Şurasının ilk iclası keçirilib



**Avqustun 26-da Ədliyyə Nazirliyində Məhkəmə Ekspertizası Şurasının ilk iclası keçirilib.**

Ədliyyə naziri Fərid Əhmədovun sədrliyi ilə keçirilən iclasda Şuranın üzvləri daxili işlər nazirinin birinci müavini Seyfulla Əzimov, müdafiə nazirinin müavini - Baş direktor Aqil Qurbanov, səhiyyə nazirinin müavini Nadir Zeynalov, Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini Şərafət Həsənov, Ali Məhkəmənin sədr müavini Çingiz Əsgərov, Baş prokurorun müavini Elmar Camalov, Vəkillər Kollegiyası Rəyasət Heyəti sədrinin müavini Şahmar Məmmədov iştirak ediblər.



Fərid Əhmədov iclası giriş sözü ilə açaraq, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 07 avqust 2024-cü il tarixli Sərəncamı ilə yaradılmış Məhkəmə Ekspertizası Şurasının ölkəmizdə məhkəmə ekspertizası sahəsində fəaliyyətin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğun təmin edilməsi, sahə üzrə vahid standartların hazırlanması və tətbiqi, rəqəmsallaşmanın və şəffaflığın təmin edilməsi, eləcə də kadr potensialının gücləndirilməsi istiqamətində əhəmiyyətini vurğulayıb.

Sonra iclasın gündəliyində duran məsələlər üzrə müzakirələrə başlanılıb. Əvvəlcə "Məhkəmə Ekspertizası Şurasının fəaliyyətinə dair iş qaydası"nın layihəsi müzakirə edilib. Həmçinin, Məhkəmə Ekspertizası Şurasının fəaliyyətinin koordinasiyasının təmin edilməsi üçün Şuranın katibi təyin olunub.

Daha sonra adıçəkilən Sərəncamın 2.1-ci bəndində nəzərdə tutulan tapşırıqların çevik qaydada həll edilməsi məqsədilə İşçi qrupların yaradılması məsələsi müzakirə edilib.

İclasın sonunda gündəlikdə olan məsələlərlə bağlı müvafiq qərarlar qəbul edilib.



**Cəza-icra sahəsində fəaliyyət**

səhifə 3-də



**Qulluğa qəbul**

səhifə 4-də




**Bələdiyyə fəaliyyəti**

səhifə 7-də

ƏDLİYYƏ AKADEMİYASI

**Ədliyyə Akademiyası xəbərləri**

səhifə 7-də

# Mehriban Əliyeva - Azərbaycan humanizminin simvolu

**Vətən və xalq naminə fədakarlıq, müasir Azərbaycanın inkişafında, sosial məsələlərin həllində fəallıq, milli-mənəvi dəyərlərə sadiqlik, sərhəd tanımayan xeyirxahlıq, mərhəmət və şəfqət Azərbaycanın birinci xanımı, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın həyat fəlsəfəsinin əsas qayəsini təşkil edir. Prezident İlham Əliyevin ömür-gün yoldaşı və ən yaxın silahdaşı olan Mehriban Əliyeva ölkəmizin hərtərəfli tərəqqisi istiqamətində görülən işlərə sanballı töhfələr verir.**

Mehriban xanım ictimai-siyasi həyatda, dönməz xarakter alan islahatlar prosesində fəal iştirakı, milli mədəniyyətimizin dünyada tanıdılması istiqamətində yorulmaz fəaliyyəti, vətənpərvərliyi və xeyirxahlığı ilə milyonların sevimlisinə çevrilib. Haqlı olaraq onu Azərbaycan humanizminin simvolu adlandırırlar. Şəhid ailələrinə, qazilərə xüsusi diqqət, valideyn himayəsindən məhrum olmuş uşaqlara göstərdiyi analıq qayğısı bunun bariz nümunələridir. Vətən müharibəsi zamanı ordumuza verdiyi mənəvi dəstək, milli həmrəyliyə xidmət edən çağırışları daim minnətdarlıq duyğuları ilə xatırlanır. Xalqımızın sosial rifahına hesablanan bir çox layihələrin müəllifi olan Mehriban Əliyeva birinci xanım adını şərəflə daşıyır, dünyaya müasir Azərbaycan qadınının qürur doğuran obrazını təqdim edir.

Azərbaycan xalqının böyük sevgisini qazanmış Mehriban xanım Müzəffər Ali Baş Komandan İlham Əliyevin ən yaxın silahdaşı kimi bu gün onunla çiyin-çiyinə Qarabağın, Şərqi Zəngəzurun dirçəldilməsində öncüllük edir. Onun Vətən və xalq qarşısında daha bir önəmli xidməti Ulu Öndərin ideyalarının həyata keçirilməsi sahəsində göstərdiyi aramsız səylər və çoxsaylı layihələrdir. Sərhəd tanımayan xeyirxahlığı, nəcibliyi birinci xanım Mehriban Əliyevaya təkcə Azərbaycanda deyil, yaxın və uzaq xaricdə tükənməz məhəbbət qazandırıb. O, həmçinin Azərbaycanda təhsilin, mədəniyyətin, səhiyyənin inkişafı, milli maraqların beynəlxalq aləmdə müdafiəsi, o cümlədən sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun təşviqi istiqamətində yorulmadan çalışır.

Birinci xanım Mehriban Əliyevanın rəhbərliyi ilə 2004-cü ildən fəaliyyətə başlayan Heydər Əliyev Fondu Ümummilli Liderin ideyalarının reallaşdırılmasında, bu dahi insanın zəngin dövlətçilik irsinin bütün dünyada tanıdılması istiqamətində əvəzsiz xidmətlər göstərir. Xalqımızın xeyriyyəçilik ənənələrinin dirçəldilərək daha geniş miqyas alması bilavasitə Heydər Əliyev Fondunun prezidentinin göstərdiyi şəxsi nümunə nəticəsində mümkün olub. Fond Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun artırılması istiqamətində də fəal iştirak edib və edir.

Mehriban xanım, həmçinin beynəlxalq sülh, təhlükəsizlik, mədəniyyətlərarası və dinlərarası dialoq mühitinin formalaşması və möhkəmlənməsi, tarixi mədəni irsin qorunması kimi olduqca vacib məsələlərin həllinə böyük töhfələr verir. Artıq 20 ildir ki, Azərbaycan tarixini və mədəni irsini, ölkəmizlə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün yorulmadan fəaliyyət göstərir. Onun səylərinin nəticəsi olaraq İçərişəhər, o cümlədən Şirvanşahlar Sarayı və Qız qalası, Qobustan qayaüstü rəsmləri, Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi, "Xınalıq və Köç yolu mədəni landşaftı", eyni zamanda, Hirkan meşələri UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Həmçinin muğam və aşıq sənətimiz, "Kamança simli musiqi alətinin hazırlanması və ifaçılıq sənəti", "Dədə Qorqud irsi", Azərbaycan kəlağayı sənəti Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahıya salınıb. Eyni zamanda, Azərbaycan 2019-cu ilin iyulunda UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına uğurla ev sahibliyi edib.

2017-ci il fevralın 21-də Mehriban Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyin edilməsi onun Azərbaycan dövlətçiliyinin inkişafı və möhkəmləndirilməsi naminə zəngin və fədakar fəaliyyətinin, habelə yüksək təşkilatçılıq qabiliyyətinin məntiqi nəticəsi kimi qiymətləndirilir. Mehriban xanımın o vaxt dediyi sözlər yada düşür: "Üzərimə düşən məsuliyyət



olduqca böyükdür. Mən Prezidentin etimadını doğrultmalıyam və ən başlıcası isə inamı, ümidi olan insanların etimadını doğrultmalıyam".

Azərbaycanın iqtisadi inkişafı və xalqımızın rifahı naminə milli məqsədlərə nail olmaqla bağlı üzərinə nəcib missiya və öhdəliklər götürən Birinci vitse-prezident Mehriban Əliyeva ötən müddət ərzində bu yüksək və məsul vəzifədə gördüyü işlərlə dövlətimizin başçısının və xalqımızın etimadını layiqincə doğruldur. Gündəlik fəaliyyətində insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribanlıq meyarlarını əsas götürür, fəaliyyətini məhz bu prinsiplər üzərində qurur, milli-mənəvi dəyərləri daim uca tutur. Onun ömür yolu, sözün əsl mənasında, Vətənə və xalqa xidmət nümunəsidir.

Mehriban Əliyevanın fəaliyyətində əhalinin həssas təbəqələrinin, o cümlədən məcburi köçkünlərin, şəhid ailələrinin, qazilərin problemlərinin həlli xüsusi yer tutur. Təsadüfi deyil ki, yeni yüksək vəzifədə keçirdiyi ilk müşavirəni qaçqın və məcburi köçkün ailələrinin həyat şəraitinin yaxşılaşdırılmasına həsr etmişdi. Həmin müşavirədən dərhal sonra müvafiq tədbirlər planı hazırlandı və real işlər başlandı. Qısa müddətdə yüz minlərlə qaçqın və məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırıldı.

Heydər Əliyev Fondu Vətən müharibəsi zamanı şəhid olan hərbçilərin ailələrini və qazilərimizi də daim diqqətdə saxlayır, onların qayğısına qalır. Fond bu kateqoriyadan olan insanların qayğıları ilə yaxından maraqlanır, onları narahat edən məsələlərin həlli istiqamətində mütəmadi tədbirlər həyata keçirir. Döyüşlərdə yaralanan hərbçilərimiz müalicə və reabilitasiya üçün Türkiyəyə göndərilib, həmçinin sağlamlıqlarını itirmiş bir qrup əsgər və zabit yüksək texnologiyalı protezlərlə təmin edilib.

Torpaqlarımızın azad olunması uğrunda mübarizəyə siyasi-mənəvi dəstək, xalqımızı milli həmrəyliyə səsləyən, şanlı Ordumuzu Qələbəyə ruhlandıran müraciət və çağırışlar, müharibədən sonra isə dövlətimizin başçısı ilə birlikdə Qarabağa çoxsaylı səfərlər, Şuşada möhtəşəm "Xarıbülbül" Musiqi Festivalının təşkili birinci xanımın xidmətləri sırasında xüsusi yer tutur. Eyni zamanda, Mehriban xanımın təşəbbüsü olan "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" və digər proqramlar təhsilin inkişafında mühüm rol oynayır. 2005-ci ildən icrasına başlanılan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində 100 mindən çox şagirdin təhsil aldığı 500-dən çox məktəb binası inşa olunub və yenidən qurulub. "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində isə 40-dan çox uşaq müəssisəsi əsaslı təmir edilib.

Əhalinin sağlamlığı məsələsi də Mehriban Əliyevanın daim xüsusi diqqət göstərdiyi sahələrdəndir. Onun təşəbbüsü ilə reallaşdırılan "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Tibb müəssisələrinin yenidən qurulması və inşası" kimi bənzərsiz layihələr, bir çox xeyriyyə aksiyaları böyük rəğbətlə qarşılanır, öz müsbət nəticələrini verir. Bu çərçivədə Bakıda müasir Talassemiya Mərkəzi, Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzi, Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün reabilitasiya Mərkəzi, Psixonevroloji Uşaq Mərkəzi və digər səhiyyə ocaqları inşa olunub və ya əsaslı şəkildə yenidən qurulub.

Azərbaycanın birinci xanımının tapşırığına əsasən aztəminatlı ailələri və xüsusi qayğıya ehtiyacı olan şəxsləri daim diqqətdə saxlayan Heydər Əliyev Fondu bu istiqamətdə də mütəmadi olaraq müxtəlif layihələr həyata keçirir. Mehriban xanım Əliyeva özünün xeyriyyəçilik fəaliyyəti ilə gələcək nəsillərə nəcib bir yolun əsas konturlarını göstərir. Artıq ictimai həyatımızda xüsusi yer tutan xeyriyyəçilik institutu müasir dövrün reallıqları və tələblərinə uyğun olaraq inkişaf etməkdə və genişlənməkdədir.

Azərbaycan həqiqətlərinin, mədəniyyətimizin, dövlətçilik ənənələrimizin, tariximizin dünyada təbliği sahəsində Mehriban xanımın təşəbbüsü ilə məqsədyönlü iş aparılır. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsinin gedişində Azərbaycanın haqlı mövqeyinin nümayişi, beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozan düşmənin dinc sakinləri hədəf alan hücumlarının beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində əməli addımlar atılıb. Mötəbər beynəlxalq qurumlarda, dünyanın müxtəlif ölkələrində sərgilər, mədəniyyət gecələri və digər tədbirlər təşkil olunub. Avropa Parlamentinin mənzil-iqamətgahında, Afinada, Kannda Azərbaycan mədəniyyəti günləri keçirilib, Parisdə Azərbaycan Mədəniyyət Mərkəzi açılıb, dünyanın müxtəlif şəhərlərində görkəmli şəxsiyyətlərimizin abidələri ucaldılıb.

Azərbaycanın böyük uğurla ev sahibliyi etdiyi "Eurovision" beynəlxalq mahnı müsabiqəsi, Formula 1, Birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları Mehriban Əliyevanın yüksək təşkilatçılıq bacarığına malik olduğunu üzə çıxardı. Respublikamızda bu mötəbər beynəlxalq tədbirlərin möhtəşəm təşkili hətta inkişaf etmiş ölkələri heyran qoydu. Təsadüfi deyil ki, Mehriban xanım idman aləmində və "Ədalətli oyunlar"ın təbliğində nümunəvi nailiyyətlərinə görə Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin "Xüsusi xidmətlərə görə" medalına layiq görülüb.

Birinci xanımın çoxşaxəli fəaliyyəti təkcə Azərbaycanla məhdudlaşmır, ölkəmizin hüdudlarını aşaraq yaxın və uzaq xaricdə geniş əks-səda doğurur. Onun təşəbbüsü ilə Heydər Əliyev Fondu Vatikanda, Fransa, Pakistan, Bosniya və Herseqovina, Misir, Hindistan və digər ölkələrdə bir sıra önəmli layihələr icra edib.

Mehriban Əliyevanın xoşməramlı fəaliyyəti həm Azərbaycanda, həm də beynəlxalq miqyasda yüksək qiymətləndirilir. Azərbaycanın ən ali dövlət mükafatı olan "Heydər Əliyev" ordeni, eləcə də "Qızıl ürək" beynəlxalq mükafatı, Avropa Olimpiya Komitələrinin Ali ordeni, Fransanın "Şərəf Legionu" ordeni, İtaliyanın "Xidmətlərə görə" Böyük Xaç Kavaleri ordeni, Polşanın "Böyük Komandor Xaçı" ordeni, Rusiyanın "Dostluq" ordeni, UNESCO-nun "Qızıl Motsart" medalı... Bu, Azərbaycanın Birinci vitse-prezidentinin layiq görüldüyü mükafatların heç də tam siyahısı deyil. Mehriban Əliyeva hesab edir ki, ən böyük mükafatı xalqın ona olan sevgisi, inamı və etimadıdır. Onun dediyi kimi, "illər ötdükcə, qarşımıza yeni ideya və planlar çıxdıqca, məqsədlərimiz xaraktercə dəyişir, amma əsas amalımız - Azərbaycan xalqına xidmət etmək amalı dəyişməz olaraq qalır və qalacaqdır".

Mehriban xanım xalqın sevgisi, etimadı ilə öz ömür kitabını yazmaqda davam edir, onu ildən-ilə yeni parlaq və mənalı səhifələrlə zənginləşdirir.

**AZƏRTAC**

# Nazir Fərid Əhmədov Şamaxı şəhərində vətəndaşları qəbul edib





**Ədliyyə naziri Fərid Əhmədov 19 avqust tarixində Şamaxı Rayon İcra Hakimiyyətinin inzibati binasında vətəndaşları qəbul edib.**

Qəbuldan əvvəl nazir Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Qəbulda Şamaxı, İsmayıllı, Qəbələ, Ağsu və Göyçay rayon sakinlərinin ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib. Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, qəbul mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçirilib.

*Cəza-icra sahəsində fəaliyyət*

# Milli Məclisə seçkilərlə bağlı Ədliyyə Nazirliyinin Penitensiar Xidmətində seminar-müşavirə keçirilib

**2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar avqustun 16-da Ədliyyə Nazirliyinin Penitensiar xidmətində seminar-müşavirə keçirilib.**

Penitensiar xidmətin rəhbərliyi, Mərkəzi Seçki Komissiyasının nümayəndələri, Xidmətin Baş idarəsinin məsul əməkdaşları, cəzaçəkmə müəssisələrinin və istintaq təcridxanalarının rəisləri, Mühafizə alayı və Konvoy taborunun komandirləri, habelə həmin qurumların yerləşdiyi ərazilər üzrə müvafiq seçki dairələri dairə seçki komissiyalarının sədrləri və media nümayəndələrinin iştirak etdiyi tədbir penitensiar müəssisələrdə seçkilərin təşkili və səsvermənin keçirilməsinə həsr olunub.

Seminar-müşavirəni açan ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi ədliyyə general-mayoru Mirsaleh Seyidov Azərbaycanın seçki qanunvericiliyinin vətəndaşlarımızın konstitusion hüquqlarının azad şəkildə reallaşdırılmasına tam təminat verdiyini vurğulayıb. Nazir müavini Xidmətin tabe qurumlarında səsvermənin yüksək səviyyədə təşkil olunması və şəffaf keçirilməsi istiqamətində ədliyyə naziri Fərid Əhmədovun tapşırıq və tövsiyələrini diqqətə çatdırıb, səsvermə yerlərinin qanunvericiliyin tələblərinə uyğun hazırlanması işlərinin həyata keçirildiyini bildirib. Xidmət rəisi qeyd edib ki, ölkə üzrə bütün digər seçki məntəqələrində olduğu kimi, tabe qurumlarda da əlverişli seçki mühiti yaradılıb.






Mərkəzi Seçki Komissiyasının katibi Arifə Muxtarova çıxışında Konstitusiyanın və Seçki Məcəlləsinin seçki hüququ ilə bağlı müvafiq müddəalarından bəhs edib, cəzaçəkmə müəssisələrində və istintaq təcridxanalarında olan seçicilərin qanunvericiliklə müəyyənləşdirilmiş səsvermə hüquqlarından danışıb. Həmçinin bildirib ki, bütün proseslər seçki qanunvericiliyinin tələbləri və Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanıb təsdiq edilmiş Təqvim planı əsasında müvəffəqiyyətlə davam edir.

Mərkəzi Seçki Komissiyası Katibliyinin şöbə müdiri Ramin Nurəliyev seçkilərin azad, ədalətli və şəffaf keçirilməsi istiqamətində atılan addımlar barədə məlumat verib, seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə prosesi, seçki günü müstəsna hallar, səslərin sayılması və səsvermənin nəticələri haqqında rəsmi protokolların doldurulması da daxil olmaqla, bütün prosedurları aydın və ətraflı izah edib.

Seminar-müşavirənin sonunda mövzular ətrafında fikir mübadiləsi və müzakirələr aparılıb, iştirakçıların sualları cavablandırılıb.



Qulluğa qəbul

# Penitensiar Xidmətdə qulluq keçmək istəyən namizədlərin sıra baxışı olub

**Penitensiar xidmətin kadr potensialının gücləndirilməsi, vakant ştat vahidlərinin layiqli namizədlərlə komplektləşdirilməsi və şəffaflığın təmin olunması məqsədilə işlər uğurla davam etdirilir.**

Ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi Mirsaleh Seyidov Lənkəran penitensiar müəssisəsində namizədlərin sıra baxışını keçirib.

Nazir müavini onların zahiri görkəmi, fiziki hazırlığı, bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb.

Əvvəlcədən dərc edilmiş elana uyğun olaraq müraciət etmiş namizədlərdən 129 nəfər növbəti seçim mərhələsinə buraxılıb.

Nazir müavini avqustun 31-də Mühafizə alayında da namizədlərin növbəti sıra baxışını keçirib. Onlardan 149 nəfər növbəti seçim mərhələsinə buraxılıb.





# İcbari təlim keçən namizədlər Məhkəmə ekspertizası mərkəzində olublar







**Ədliyyə orqanlarına qulluğa qəbul üzrə müsabiqədə uğur qazanmış namizədlərlə icbari təlim çərçivəsində 05 avqust 2024-cü il tarixdə Məhkəmə ekspertizası mərkəzində görüş keçirilib.**

Görüşdə Mərkəzin rəhbərliyi ilə yanaşı, Nazirliyin aidiyyəti struktur qurum rəhbərləri də iştirak edib.

Tədbirdə namizədlərə ədalət mühakiməsinin həyata keçirilməsində və cinayətkarlığa qarşı mübarizədə mühüm rol oynayan məhkəmə ekspertizasının yaranma tarixi, müasir ekspertizanın formalaşması, məhkəmə ekspertizası fəaliyyətinin alternativ mexanizmlərinin yaradılması istiqamətində son dövrlərdə qanunvericiliyə edilmiş dəyişikliklər, məhkəmə ekspertizası sahəsində işin yaxşılaşdırılması üzrə aparılan tədbirlər barədə məlumat verilib.

Həmçinin məhkəmə ekspertizası sahəsində yaradılan elektron informasiya resursları, o cümlədən elektron xidmətlər barədə məlumat verilib, namizədləri maraqlandıran suallar cavablandırılıb.

Sonda namizədlər Məhkəmə ekspertiza mərkəzində mövcud olan laboratoriyalarda iş prosesi ilə yaxından tanış olublar. Onlara müxtəlif istiqamətlərdə ekspertizaların aparılması məqsədilə istifadə edilən avadanlıqlar barədə məlumat verilib.



# Ədliyyə işçilərinin könüllü qanvermə aksiyası keçirilib

**Ədliyyə Nazirliyinin və Səhiyyə Nazirliyi Milli Hematologiya və Transfuziologiya Mərkəzinin təşkilatçılığı ilə talassemiyalı və hemofiliyalı xəstələrə yardım məqsədilə 20-22 avqust tarixlərində ədliyyə işçilərinin qanvermə aksiyası keçirilib.**

Aksiya çərçivəsində 21 avqust tarixində Nazirliyin aparatının əməkdaşları könüllü donorluq edərək qan xəstəliklərindən əziyyət çəkənlərin müalicəsinə töhfə veriblər.

Ədliyyə işçilərinin könüllü qanvermə aksiyası Mərkəzin Qan Bankında davam edib.













# Ədliyyə Nazirliyinin təşəbbüsü ilə "Daşınmaz əmlak dövriyyəsinin stabilliyi" mövzusunda seminar keçirilib



**Mülki hüquq münasibətlərinin tənzimlənməsində xüsusi yer tutan əmlak hüquqlarının müasir dövrün çağırışlarına uyğun təmin edilməsi üçün səmərəli mexanizmlərin yaradılması məqsədilə Ədliyyə Nazirliyinin təşəbbüsü ilə "Daşınmaz əmlak dövriyyəsinin stabilliyi" mövzusunda elmi-praktiki seminar keçirilib.**

Beynəlxalq ekspert, Almaniyanın Halle-Vittenberq Universitetinin professoru Azər Əliyevin iştirakı ilə keçirilən seminarda Ədliyyə və İqtisadiyyat nazirlikləri, Ali Məhkəmə, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Mənzil İnşaatı Dövlət Agentliyi, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi, Vəkillər Kollegiyası və Azərbaycan Notariat Palatasının nümayəndələri iştirak edib.

Seminarda daşınmaz əmlak sektorunun inkişaf etdirilməsi, bu sahədə risklərin qiymətləndirilməsi, o cümlədən tikintisi başa çatmamış binalarda hüquqların rəsmiləşdirilməsində mövcud problemlər ətrafında müzakirələr aparılıb, bu sahədə qabaqcıl beynəlxalq təcrübələrin tətbiqi imkanları nəzərdən keçirilib.



# "Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi" İşçi qrupunun məlumatı

**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi" İşçi qrupu fəaliyyətini Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Mübahisələrin həlli" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi"nin icrası üzrə uğurla davam etdirir.**

Yol Xəritəsinin kommersiya işlərinə baxılması müddətləri ilə bağlı hesabatlılıq və hakimlərin gender faktoru üzrə statistik hesabatların verilməsi tədbirlərinin icrası ilə əlaqədar Vahid Məhkəmə Portalının "Məhkəmə statistikası" bölməsi yenilənib.

Geniş auditoriyanın məhkəmə statistikası sahəsində məlumatlara əlçatanlığının təmin edilməsi məqsədi ilə İşçi Qrupun fəaliyyəti çərçivəsində məhkəmələr tərəfindən icraata daxil olmuş və həll olunmuş müxtəlif kateqoriyalı kommersiya işlərinin sayı barədə 2022 və 2023-cü illəri əhatə edən statistik məlumatlar Vahid Məhkəmə Portalının "Məhkəmə statistikası" bölməsində "Daxil olmuş işlər (Incoming cases)" başlığı altında Ali Məhkəmə, apellyasiya instansiyası məhkəmələri və hər bir kommersiya məhkəməsi üçün ayrılıqda yerləşdirilib.

Bundan başqa icraata daxil olmuş və həll olunmuş müxtəlif kateqoriyalı kommersiya işlərinin bitmə əmsalı (clearance rate) və işlərə baxılma müddəti (disposition time) barədə 2022-2024-cü illəri əhatə edən statislik hesabatlar da hazırlanaraq Vahid Məhkəmə Portalının adıçəkilən bölməsində müvafiq olaraq "Clearence rate (İşlərin bitmə əmsalı)" və "Disposition time (Məhkəmə işinə baxılma müddəti)" başlıqları altında hər bir kommersiya məhkəməsi üzrə yerləşdirilib.

Həmin hesabat 2022-2024-cü illər üçün ayrı-ayrı rüblər üzrə göstəricililər şəklində də təsnifatlaşdırılıb.

Bununla yanaşı statistikanın hazırlanmasında əsas götürülmüş metodologiya da ictimaiyyətin məlumatlandırılması məqsədi ilə həmin bölmədə öz əksini tapıb.

Hakimlərin gender faktoru üzrə dəqiq statistik hesabatların verilməsi məqsədi ilə Vahid Məhkəmə Portalının "Məhkəmə statistikası" bölməsində "Distribution of judges by gender (Hakimlərin cinsə görə bölgüsü)" başlığı altında birinci instansiya, apellyasiya və kassasiya instansiyası məhkəmələri üzrə hakimlərin ümumi sayını və onlardan qadın və kişi hakimlərin bölgüsünü əhatə edən statistik məlumatlar yerləşdirilib.

Bu statistik məlumat Ali Məhkəmə və apellyasiya məhkəmələrinin kollegiyaları üzrə, habelə birinci instansiya məhkəmələri üzrə isə rayon (şəhər) məhkəmələri və ixtisaslaşdırılmış məhkəmələr olmaqla ayrılıqda təsnifatlaşdırılıb.

Hazırlanmış statistikaya cəmiyyətin müxtəlif kateqoriyalarının əlçatanlığının təmin edilməsi məqsədi ilə göstərilən bütün məlumatlar Portalda azərbaycan dili ilə yanaşı, ingilis dilində də yerləşdirilib.

Məlumat üçün qeyd edək ki, "Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi" İşçi qrupuna rəhbərliyi Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir.

**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi" İşçi Qrupunun Ədliyyə Nazirliyinin inzibati binasında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin dəstəyi ilə sahibkarlıq subyektləri ilə görüşü keçirilib.**



Görüş çərçivəsində İşçi Qrupun rəhbəri, nazirliyin Strateji planlaşdırma və monitorinq baş idarəsinin rəisi Toğrul Hüseynov və İşçi Qrupun digər üzvləri tərəfindən sahibkarların qarşılaşdıqları çətinliklər, İşçi Qrupun fəaliyyətində görmək istədikləri islahatlar və yeniliklər dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb və müvafiq sahədə qanunvericiliyin müddəaları onların diqqətinə çatdırılıb.

Görüşdə həmçinin Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Mübahisələrin həlli" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi" çərçivəsində İşçi Qrup tərəfindən görülmüş işlər barədə sahibkarlara məlumat verilib.

Qeyd olunub ki, "Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi" İşçi Qrupunun əsas məqsədi öz fəaliyyət istiqamətlərinə uyğun olaraq biznesin təşviqinə şərait yaradan bütün aspektlərin inkişaf etdirilməsi, maneələrin aradan qaldırılması, mübahisələrin həlli mexanizmlərinin təkmilləşdirilməsi və onların əlçatanlığının təmin edilməsidir. Bu məqsədlə mübahisələrin həlli, məhkəmələrin və digər orqanların qərarlarının operativ icrası və effektivliyinin təmin edilməsi istiqamətində İşçi Qrup tərəfindən mühüm islahatlar aparılır.

Görüşdə bildirilib ki, icra hərəkətlərinin həyata keçirilməsində nağdsız hesablaşmaların tətbiqi, borclunun elektron pul təşkilatlarında olan vəsaitlərinə tutmanın yönəldilməsi, icra sənədlərinin icrasından yayınan hüquqi şəxslərin rəhbərlərinin ölkədən getmək hüququnun məhdudlaşdırılması, habelə onların axtarışının təşkili ilə bağlı və digər layihələr hazırlanaraq aidiyyəti üzrə təqdim edilib.

**(ardı 6-cı səhifədə)**

# "Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi" işçi qrupunun sahibkarlıq subyektləri ilə görüşü

**(əvvəli 5-ci səhifədə)**

Bununla yanaşı icra sisteminin maksimum rəqəmsallaşdırılması, bir sıra icra hərəkətlərinin tam avtomatlaşdırılması və icra sənədlərinin icrasında operativliyin təmin edilməsi məqsədilə ”Elektron icra” informasiya sisteminin təkmilləşdirilməsi istiqamətində işlərin aparıldığı bildirilib.

Həmçinin vurğulanıb ki, ədliyyə orqanları tərəfindən göstərilən elektron xidmətlərin sayı artırılaraq ”İcra məmuruna elektron müraciət” xidməti istifadəyə verilib. Yeni xidmətdən istifadə etmək üçün nazirliyin rəsmi internet səhifəsində ”Dövlət xidmətləri” bölməsindən ”İcra xidmətləri” hissəsinə keçid etməklə vətəndaşlar FİN və doğum tarixi əsasında sorğu edərək özlərinin tərəf olduqları icra işləri barədə məlumatları əldə edə, seçdikləri işlə bağlı icra məmuruna müraciət edə, habelə zəruri sənədləri həmin müraciətə əlavə edə bilərlər.

Eyni zamanda qeyd olunub ki, ”Vahid məhkəmə portalı”nın yeni versiyası formalaşdırılaraq istifadəyə verilib. Burada həmçinin geniş auditoriyanın məhkəmə statistikası sahəsində məlumatlara əlçatanlığının təmin edilməsi məqsədi ilə ”Məhkəmə statistikası” bölməsi yenilənərək yeni statistik göstəricilər əlavə edilib.

Görüşdə həmçinin mübahisələrin alternativ həlli mexanizmlərindən olan mediasiya sisteminin elektronlaşdırılması üzrə də işlərin yekunlaşma mərhələsində olduğu, e-mediasiya portalının hazırlandığı və onun çox az ölkə istisna olmaqla analoji modelinin mövcud olmadığı qeyd olunaraq, portalın yaxın vaxtlarda ictimaiyyətə təqdim olunacağı səsləndirilib.

Bundan başqa mübahisələrin alternativ həlli yollarından olan arbitraj institutunun ölkəmizdə inkişaf etdirilməsi yönündə islahatların aparıldığı, bu institutun elektronlaşması üzrə işlərə başlanıldığı da qeyd edilib.

Qeyd edək ki, Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın ”Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi” İşçi Qrupuna rəhbərliyi Ədliyyə Nazirliyi həyata keçirir.

# Biznesin müflisləşməsi və sağlamlaşdırılması sahəsində yeni priorietlər müzakirə edilib

**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın ”Biznesin müflisləşməsi” işçi qrupu çərçivəsində aidiyyəti dövlət qurumlarının məqsədyönlü və koordinasiyalı fəaliyyəti nəticəsində sahibkarlıq subyektlərinin müflisləşməsi və sağlamlaşması sahəsində təşəbbüs olunan qanunvericilik və institusional islahatlar, əldə edilmiş nailiyyətlər ölkəmizdə biznes mühitinin daha da yaxşılaşdırılması və beynəlxalq reytinqlərin yüksəlməsinə xidmət edir.**



”Biznesin müflisləşməsi” işçi qrupunun növbəti iclası Ədliyyə Nazirliyinin inzibati binasında keçirilib. İclasda Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri, Komissiya Katibliyinin rəhbəri Vüsal Şıxəliyev, İşçi qrupunun rəhbəri, Bakı Apellyasiya Məhkəməsinin hakimi Ramin Qaraqurbanlı, Ədliyyə Nazirliyinin Strateji planlaşdırma və monitorinq baş idarəsinin rəisi Toğrul Hüseynov və nazirliyin digər məsul vəzifəli şəxsləri, eləcə də İqtisadiyyat Nazirliyi, həmin nazirlik yanında Dövlət Vergi Xidmətinin rəsmiləri iştirak edib.

İclasda ”Dünya Bankı Qrupunun ”Business Ready” hesabatının ”Biznesin müflisləşməsi” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə” Yol Xəritəsində nəzərdə tutulmuş fəaliyyətlərin icra vəziyyəti müzakirə olunub və görülmüş işlər üzrə dinlənilmələr aparılıb.

Qeyd edək ki, biznesin müflisləşməsi prosesinin müasir dövrün tələblərinə uyğun yeni mexanizmlər əsasında tənzimlənməsini təmin etmək məqsədilə ötən müddət ərzində İşçi qrupu tərəfindən beynəlxalq ekspertlər cəlb olunmaqla ”Sağlamlaşdırma və müflisləşmə haqqında” yeni qanun layihəsinin ilkin variantı hazırlanıb.

Həmin qanun layihəsinin tərtib olunması işinin tamamlanması üçün Ədliyyə Nazirliyi Qanunvericilik baş idarəsinin rəhbərliyi ilə Tematik qrup yaradılıb, tərkibi müəyyənləşdirilərək iş qrafiki təsdiq olunub. Həmin Tematik qrup tərəfindən biznesin müflisləşməsini, sahibkarlıq subyektlərinin sağlamlaşdırılmasını və müflisləşməsini tənzimləyəcək yeni qanun layihəsi ilə yanaşı, bu sahəyə dair digər qanunvericilik aktlarına dəyişikliklərin edilməsi məsələsinin də müzakirə olunması nəzərdə tutulur.

Belə ki, iflas proseduru başlanılmış hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər barədə məlumatların hüquqi şəxslərin dövlət reyestri və reyestrdə vergi ödəyicilərinin uçotunun aparılması məqsədilə beynəlxalq təcrübə nəzərə alınmaqla müvafiq qanunvericilik aktlarına dəyişikliklərə dair layihələr hazırlanıb.

Eyni zamanda, qeyd edək ki, İşçi qrupu tərəfindən İqtisadiyyat Nazirliyinin fəal iştirakı ilə BMT-nin Beynəlxalq Ticarət Qanunvericiliyi Komissiyasının tövsiyələri nəzərə alınmaqla mikro, kiçik və orta sahibkarlıq subyektləri üçün sadələşdirilmiş iflas və sağlamlaşdırma prosedurlarının müəyyən edilməsi ilə əlaqədar araşdırmalar aparılıb.

Yol Xəritəsində nəzərdə tutulan insan kapitalının gücləndirilməsi fəaliyyəti üzrə Ədliyyə Akademiyası tərəfindən davamlı olaraq işlər görülür, kommersiya mübahisələrinə baxan hakimlər, hakimliyə namizədlər, bu növ işlərdə iştirak edən vəkillər və əmlak inzibatçıları üçün müflisləşmə və sağlamlaşdırma ilə bağlı təlimlərin təşkil olunması istiqamətində tədbirlər həyata keçirilir, zəruri tədris proqramları hazırlanır.

Bununla yanaşı, müflisləşmə və sağlamlaşdırma prosesinin rəqəmsallaşdırılması sahəsində işlər həyata keçirilərək ”Elektron məhkəmə” informasiya sistemində hüquqi şəxsin və ya fərdi sahibkarın müflis elan edilməsi barədə mövcud olan məlumatların dövlət satınalmalarının vahid internet portalı vasitəsilə əldə edilməsi, habelə internet resurslarında bu sahədə çıxarılmış qərarların və müvafiq hesabat növünün ayrıca dərci imkanı yaradılıb.

Hazırda müflisləşmə sisteminin təkmilləşdirilməsi üzrə görülmüş işlər və bu sahədə olan beynəlxalq tələblər barədə kommunikasiya və maarifləndirmə tədbirlərinin davam etdirilməsi üçün intensiv müzakirələr aparılır.

İşçi qrup qeyd olunan sahə ətrafında təkliflərə və müzakirələrə tam açıq olduğunu bəyan edir.

Məlumat üçün qeyd edək ki, ”Biznesin müflisləşməsi” işçi qrupuna rəhbərliyi Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir.

(Əlaqələndirici şəxs: İşçi qrupun katibi - Səmral Kazımlı, tel: 510-10-01, daxili: 1132, e-mail: semral.necefzade@justice.gov.az).

**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın ”Biznesin müflisləşməsi” işçi qrupunun fəaliyyəti çərçivəsində ”Sağlamlaşdırma və müflisləşmə haqqında” yeni qanun layihəsinin hazırlanması üzrə tematik qrupunun hibrid formatda növbəti iclası keçirilib.**

İclasda Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, həmin nazirlik yanında Dövlət Vergi Xidməti, Mərkəzi Bankı və Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin nümayəndələri iştirak edib.

Tematik qrupun rəhbəri Ədliyyə Nazirliyinin Qanunvericilik Baş idarəsinin rəis müavini Səkinə Əliyeva iclası açıq elan edərək, biznesin müflisləşməsi sahəsində beynəlxalq ekspertin cəlb edilməsi ilə hazırlanmış yeni ”Sağlamlaşdırma və müflisləşmə haqqında” qanun layihəsinin yekunlaşdırılması məsələsinin müzakirə ediləcəyini qrup üzvlərinin diqqətinə çatdırıb.

Müzakirə zamanı yeni qanun layihəsinin çox geniş və beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmış əhatəli sənəd olduğu vurğulanıb.

Sözügedən normativ-hüquqi aktın Azərbaycan Respublikasının qanunvericilik tələblərinə və milli hüquq ənənələrinə uyğunlaşdırılması üçün Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsi tərəfindən hər bir maddəyə baxılmasının vacibliyi bildirilib.

Sonda tematik qrup tərəfindən növbəti iclasda Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsi tərəfindən qanun layihəsinə müvafiq düzəlişlər edildikdən sonra sənədə baxılması və ”Dünya Bankı Qrupunun ”Business Ready” layihəsinin ”Biznesin müflisləşməsi” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə” Yol Xəritəsində qeyd olunmuş digər məsələlərin müzakirəsinin həyata keçirilməsi barədə qərar verilib.

*Bələdiyyə fəaliyyəti*

# Yerli özünüidarəetmə sahəsində hüquqi maarifləndirmə ilə bağlı seminarlar

**Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş baş idarəsi avqustun 1-də Bakı şəhəri üzrə bələdiyyə üzv və qulluqçuları üçün "Bələdiyyə mülkiyyətinin idarə olunması sahəsində qanunvericiliyin tələbləri", "Müasir informasiya texnologiyalarından istifadə etməklə yerli büdcə vəsaitlərindən səmərəli istifadə olunması" və "Bərk məişət tullantılarının idarə olunmasında qanunvericiliyin tələbləri" mövzularında onlayn seminar təşkil edib.**

Tədbirdə bələdiyyə mülkiyyətində olan əmlaka sahiblik, ondan istifadə və onun barəsində sərəncam verilməsi hüquqlarından, bu sahədə mövcud qanunvericiliyin tələblərindən bəhs edilib.

Eyni zamanda yerli (bələdiyyə) vergi və ödənişlərin yığılması işinin səmərəli təşkili məqsədilə, yerli vergi və ödənişlərin toplanması, tədiyyəçilərlə münasibətlərin düzgün qurulması, gəlir və xərclər sahəsində şəffaflığın təmin olunması üçün tətbiq edilmiş müasir informasiya texnologiyalarının bələdiyyələrin fəaliyyəti ilə bağlı yaratdığı imkanlar barədə fikir mübadiləsi aparılıb.

Həmçinin seminarda məişət tullantılarının idarə edilməsi sahəsində dövlət orqanlarının (qurumlarının) səlahiyyətlər bölgüsündən, bərk məişət tullantılarının yığılması və daşınması ilə bağlı bələdiyyələr tərəfindən yalnız bələdiyyə torpaqlarının tullantılarla çirklənmədən qorunması, əhali arasında yaşayış yerlərinin təmiz saxlanılması qaydalarına riayət edilməsi barədə izahat işlərinin aparılmasından və onların bu cür tədbirlərə cəlb edilməsindən danışılıb.



Müzakirə olunan mövzular, həmçinin bələdiyyələrin gündəlik fəaliyyətlərində rastlaşdıqları məsələlər barədə iştirakçıların sualları cavablandırılıb.

***

Digər seminar avqustun 21-də yerli özünüidarəetmə orqanlarında kargüzarlıq və arxiv işinin təşkili ilə bağlı qanunvericiliyin tələbləri, o cümlədən bələdiyyə iclaslarının və qəbul edilmiş qərarların qanunvericiliyə uyğun sənədləşdirilməsi mövzularına olunub.

Tədbirdə bələdiyyələrdə kargüzarlıq və arxiv işinin təşkilinin qanunvericiliyin tələblərinə uyğun aparılması, habelə sənədlərin qeydiyyat kitablarının düzgün tərtib edilməsi ilə bağlı ətraflı izahlar verilib.

Eyni zamanda bələdiyyə iclaslarının və qəbul edilmiş qərarların qanunvericiliyin tələblərinə uyğun protokollaşdırılması qaydalarından, bələdiyyələr tərəfindən qəbul edilmiş inzibati aktların qanunvericiliyin tələblərinə uyğun olmadığı təqdirdə inzibati orqan tərəfindən məhkəmə qaydasında mübahisələndirilməsi məsələlərindən də bəhs edilib.

Sonda müzakirə olunan mövzular, o cümlədən iştirakçıların sualları cavablandırılıb, verilən təkliflər əsasında ətraflı fikir mübadiləsi aparılıb.

***

Avqustun 29-da Bərdə regional ədliyyə idarəsinin təşkilatçılığı ilə Bərdə rayonu üzrə bələdiyyələrin bir hissəsinin sədr, üzv və qulluqçularının iştirakı ilə keçirilən növbəti seminar-müşavirədə "Bələdiyyə mülkiyyətinin idarə edilməsi ilə bağlı yol verilən xarakterik pozuntular və onların qarşısının alınması", "İxtisaslaşmış kadrların bələdiyyə qulluğuna cəlb edilməsinin əhəmiyyəti", "Bərk məişət tullantılarının idarə olunmasında qanunvericiliyin tələbləri" mövzuları üzrə seminar iştirakçılarına ətraflı məlumat verilib və fikir mübadiləsi aparılıb.

Həmçinin tədbir çərçivəsində korrupsiyaya şərait yaradan hüquqpozmaların törədilməsinin qarşısının alınması məqsədi ilə müvafiq tədbirlərin görülməsinin zəruriliyi, habelə bələdiyyə mülkiyyətində olan torpaqların tikinti məqsədləri üçün ayrılması zamanı aidiyyəti qurumlardan rəy alınması ilə bağlı bəzi məsələlər seminar iştirakçılarının nəzərinə çatdırılıb.

# Yasamal bələdiyyəsində ictimai dinləmə keçirilib

**Avqustun 24-də Yasamal bələdiyyəsi tərəfindən bələdiyyələri yaranmasının 25 illik yubileyi münasibətilə bələdiyyə üzvləri və qulluqçularının, şəhid ailələri və Vətən müharibəsi iştirakçılarının, o cümlədən yerli əhalinin iştirakı ilə ictimai dinləmə keçirilib.**

İctimai dinləmədə həmçinin Ədliyyə Nazirliyinin, Yasamal rayon İcra Hakimiyyətinin, Azərbaycan Şəhər Bələdiyyələrinin Milli Assosiasiyasının və Bələdiyyələrin fəaliyyətinin təbliği ictimai birliyinin nümayəndələri də iştirak edib.



Tədbirdə Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan bələdiyyələrinin 25 illik inkişaf yolundan və Yasamal bələdiyyəsi tərəfindən görülən işlər barədə danışılıb.

Daha sonra Yasamal bələdiyyəsi tərəfindən görülən işlər barədə hazırlanmış qısametrajlı videoçarx nümayiş etdirilib.

Həmçinin tədbirdə iştirak edən şəhid ailələri Yasamal bələdiyyəsi tərəfindən görülən işləri yüksək qiymətləndirərək, göstərilən diqqət və qayğıya görə öz minnətdarlıqlarını bildiriblər.

Sonda yerli sakinlərin istək və təklifləri dinlənilib, səsləndirdikləri məsələlərin həlli ilə bağlı müzakirələr aparılıb.

*Ədliyyə Akademiyası xəbərləri*

# Ədliyyə Akademiyasında





**Ədliyyə Akademiyası hakimlər üçün "Ədalət mühakiməsi prosesində yetkinlik yaşına çatmayanlarla davranış qaydaları" mövzusunda ixtisasartırma kursu keçirib.**

2 avqust tarixində, 23 nəfər hakimin iştirak etdiyi kursda mövzular Ali Məhkəmənin hakimi Teyyub Muxtarov tərəfindən tədris edilib.

Təlim zamanı yetkinlik yaşına çatmayanlarla davranış qaydaları, hüquqi prosedurlar zamanı cinayətdən zərərçəkmiş, cinayətin şahidi olmuş, cinayət və hüquq pozuntusu törətmiş uşaqların hüquqlarının və qanuni maraqlarının təmin edilməsi, uşaqlarla müsahibə aparılması, onların dindirilməsi, uşaqların və onların ailələrinin sosial-psixoloji vəziyyətinin qiymətləndirilməsi və s. barədə məsələlər tədris olunub.

***

Hakimlər üçün növbəti ixtisasartırma kursu "Mübahisələrin həllində beynəlxalq arbitraj prosedurlarından istifadə təcrübəsi" mövzusuna həsr olunub.

23 avqust tarixində 31 nəfər hakimin iştirak etdiyi kursda mövzular Beynəlxalq Arbitraj Məhkəməsinin Təlim və tədris departamentinin rəhbəri Ruslan Mirzəyev tərəfindən tədris edilib.

Təlim zamanı tipik bir arbitraj prosesinin təsviri, arbitraj prosedurunda məhkəmələrin funksiyaları, işlərin məhkəmələr tərəfindən arbitraja yönəldilməsi, məhkəmələrin arbitrajda dəstək funksiyaları, xarici arbitraj qərarlarının ləğv edilməsi, tanınması və icrasından imtina üçün əsaslar və s. barədə məsələlərə toxunulub.



# QEYRİ-KOMMERSİYA TƏŞKİLATLARININ REYESTR MƏLUMATI

### "Elitar Gənc Biznesmenlər Mərkəzi" ictimai birliyi

**Qeydiyyat tarixi:** 28.09.2005-ci il
**Qeydiyyat №-si:** 1105-Q5-1898
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən hazırkı adı: "Gənc Fəallar və Liderlər Alyansı" ictimai birliyi, qanuni təmsilçisi Cəfərova Ülkər Novruz qızı olmuşdur
**Dəyişiklik:** 05.08.2024-cü il tarixdə qeydə alınıb

### Azərbaycan Respublikası Səhiyyə İşçiləri Həmkarlar İttifaqı

**Qeydiyyat tarixi:** 10.01.1992-ci il
**Qeydiyyat №-si:** 859
Qurultayın qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Muradova Elnara Nadir qızı olmuşdur
**Dəyişiklik:** 05.08.2024-cü il tarixdə qeydə alınıb

### Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutu

**Qeydiyyat tarixi:** 12.01.1996-cı il
**Qeydiyyat №-si:** D-943
Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Ramazanova Afaq Xurrəm qızı olmuşdur
**Dəyişiklik:** 07.08.2024-cü il tarixdə qeydə alınıb

### "Gəncə Avro-Atlantik Məlumat Mərkəzi" ictimai birliyi

**Qeydiyyat tarixi:** 26.12.2007-ci il
**Qeydiyyat №-si:** 1107-Q20-2470
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Xəlilov Mehman Sədrəddin oğlu olmuşdur
**Dəyişiklik:** 07.08.2024-cü il tarixdə qeydə alınıb

### "Avropa Tələbələr Forumu-Sumqayıt" ictimai birliyi

**Qeydiyyat tarixi:** 23.04.2009-cu il
**Qeydiyyat №-si:** 1109-Q27-2714
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Şirinova Nubar Şirin qızı olmuşdur
**Dəyişiklik:** 08.08.2024-cü il tarixdə qeydə alınıb

### "Xətai-24" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti

**Qeydiyyat tarixi:** 14.06.2021-ci il
**Qeydiyyat №-si:** 1121-MM8-0209
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Qasımov Rüfət Ramiz oğlu olmuşdur
**Dəyişiklik:** 08.08.2024-cü il tarixdə qeydə alınıb

### "Gilavar Foto Klubu" ictimai birliyi

**Qeydiyyat tarixi:** 17.01.2022-ci il
**Qeydiyyat №-si:** 1122-Q79-4003
Birliyin idarə heyətinin qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Mehdiyev Rəşad Azad oğlu olmuşdur
**Dəyişiklik:** 09.08.2024-cü il tarixdə qeydə alınıb

### "Yeni Gələcək" gənclərin maarifləndirilməsi ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.12.2013-cü il
**Qeydiyyat №-si:** 1113-Q48-3247
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əlizadə Elnur Bəhruz oğlu olmuşdur
**Dəyişiklik:** 09.08.2024-cü il tarixdə qeydə alınıb

### "İşgəncələr Əleyhinə Araşdırmalar Mərkəzi" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.12.2021-ci il
**Qeydiyyat №-si:** 1121-Q78-3984
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Cəfərli Fikrət Novruz oğlu olmuşdur
**Dəyişiklik:** 09.08.2024-cü il tarixdə qeydə alınıb

### "Xətai-29" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti

**Qeydiyyat tarixi:** 04.10.2021-ci il
**Qeydiyyat №-si:** 1121-MM8-0220
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Qasımov Rüfət Ramiz oğlu olmuşdur
**Dəyişiklik:** 09.08.2024-cü il tarixdə qeydə alınıb

### "Azəri Gənclər Alyansı" ictimai birliyi

**Qeydiyyat tarixi:** 25.05.2007-ci il
**Qeydiyyat №-si:** 1107-Q18-2388
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Məmmədli Leyla Yadigar qızı olmuşdur
**Dəyişiklik:** 12.08.2024-cü il tarixdə qeydə alınıb

### "Avropa Hüquqşünas Tələbələr Assosiasiyası-Bakı" ictimai birliyi

**Qeydiyyat tarixi:** 22.04.2011-ci il
**Qeydiyyat №-si:** 1111-Q35-2940
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Çələbiyev Nazim Eldəniz oğlu olmuşdur
**Dəyişiklik:** 12.08.2024-cü il tarixdə qeydə alınıb

### "Qürur" şəhid ailələri xeyriyyə ictimai birliyi

**Qeydiyyat tarixi:** 16.08.2000-ci il
**Qeydiyyat №-si:** 1314
Birliyin ümumi yığıncağının protokolundan çıxarış və digər sənədlərə əsasən qanuni təmsilçisi Behbudova Naibə Abuzər qızı olmuşdur
**Dəyişiklik:** 12.08.2024-cü il tarixdə qeydə alınıb

### "Balans" iqtisadi maarifləndirmə ictimai birliyi

**Qeydiyyat tarixi:** 03.07.2007-ci il
**Qeydiyyat №-si:** 1107-Q18-2398
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Nağıyev Möhübbəli Mürsəl oğlu olmuşdur
**Dəyişiklik:** 12.08.2024-cü il tarixdə qeydə alınıb

### "Nəsimi-19" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti

**Qeydiyyat tarixi:** 17.09.2018-ci il
**Qeydiyyat №-si:** 1118-MM5-0093
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Salmanov Vüsal Səxavət oğlu olmuşdur
**Dəyişiklik:** 12.08.2024-cü il tarixdə qeydə alınıb

### "İnsan Hüquqları və Maarifçilik" ictimai birliyi

**Qeydiyyat tarixi:** 21.07.2006-cı il
**Qeydiyyat №-si:** 1106-Q12-2179
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Becanov Rəfail Zəkəriyyə oğlu olmuşdur
**Dəyişiklik:** 13.08.2024-cü il tarixdə qeydə alınıb

### "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası

**Qeydiyyat tarixi:** 17.08.1990-cı il
**Qeydiyyat №-si:** 1117-Q61-3543
Qurultayın və Rəyasət Heyətinin qərarları və digər sənədlərə əsasən qanuni təmsilçisi Məmmədov Fuad Teyyub oğlu olmuşdur
**Dəyişiklik:** 13.08.2024-cü il tarixdə qeydə alınıb

### "Sosial-İqtisadi Araşdırmalar" ictimai birliyi

**Qeydiyyat tarixi:** 24.09.2003-cü il
**Qeydiyyat №-si:** 1103-Q1-1479
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əliyeva Fərqanə Mustafa qızı olmuşdur
**Dəyişiklik:** 13.08.2024-cü il tarixdə qeydə alınıb

### "Şəhid Ailələrinə Sosial Dəstək" ictimai birliyi

**Qeydiyyat tarixi:** 12.08.2011-ci il
**Qeydiyyat №-si:** 1111-Q37-2972
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Zeynalova Almaz Mütəllim qızı olmuşdur
**Dəyişiklik:** 13.08.2024-cü il tarixdə qeydə alınıb

### "Sosial Məsələlərin Həllinə Kömək" ictimai birliyi

**Qeydiyyat tarixi:** 14.12.2010-cu il
**Qeydiyyat №-si:** 1110-Q34-2911
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Daşdəmirbəyli Nərmin Asif qızı olmuşdur
**Dəyişiklik:** 14.08.2024-cü il tarixdə qeydə alınıb

### "Qadın Sahibkarlarının Assosiasiyası" ictimai birliyi

**Qeydiyyat tarixi:** 19.04.2006-cı il
**Qeydiyyat №-si:** 1106-Q10-2074
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən hazırkı hüquqi ünvanı: Yeni qaydalarla: AZ1122, Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi, giriş 337, M15,m5, qanuni təmsilçisi Əfəndiyeva Vəfa Niyaz qızı olmuşdur
**Dəyişiklik:** 15.08.2024-cü il tarixdə qeydə alınıb

### "Vətən Uğrunda Şəhid Ailələri və Milli Qəhrəmanlar" ictimai birliyi

**Qeydiyyat tarixi:** 18.02.2005-ci il
**Qeydiyyat №-si:** 1105-Q3-1699
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əsgərov Hikmət Əsgər oğlu olmuşdur
**Dəyişiklik:** 16.08.2024-cü il tarixdə qeydə alınıb

### "Qayıdış və Dirçəliş Naminə Gənclər Təşkilatı" ictimai birliyi

**Qeydiyyat tarixi:** 26.02.1997-ci il
**Qeydiyyat №-si:** 928
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Qədirov Vüqar Kərim oğlu olmuşdur
**Dəyişiklik:** 16.08.2024-cü il tarixdə qeydə alınıb

### "İqtisadi resursların öyrənilməsi" ictimai birliyi

**Qeydiyyat tarixi:** 15.02.2010-cu il
**Qeydiyyat №-si:** 1110-Q30-2809
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Atakişiyev Ruslan Bahyəddin oğlu olmuşdur
**Dəyişiklik:** 16.08.2024-cü il tarixdə qeydə alınıb

### "Miqrasiya Könüllüsü" ictimai birliyi

**Qeydiyyat tarixi:** 28.06.2019-cu il
**Qeydiyyat №-si:** 1119-Q68-3723
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi İbrahimli Şəbnəm Nizami qızı olmuşdur
**Dəyişiklik:** 16.08.2024-cü il tarixdə qeydə alınıb

### "Meridian" Humanitar ictimai birliyi

**Qeydiyyat tarixi:** 16.04.2005-ci il
**Qeydiyyat №-si:** 1105-Q4-1721
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən hazırkı hüquqi ünvanı: Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi, giriş 337, M15, m5, yeni qanuni təmsilçisi Quliyev Müslüm Ramiz oğlu olmuşdur
**Dəyişiklik:** 21.08.2024-cü il tarixdə qeydə alınıb

### "Beynəlxalq hüquq sahəsində maarifləndirmə və tədqiqatlar" ictimai birliyi

**Qeydiyyat tarixi:** 31.01.2017-ci il
**Qeydiyyat №-si:** 1117-Q58-3468
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Rəhimli Səftər Mikayıl oğlu olmuşdur
**Dəyişiklik:** 23.08.2024-cü il tarixdə qeydə alınıb

### Azərbaycan Milli Elmlər Akademiyasının Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutu

**Qeydiyyat tarixi:** 07.06.1995-ci il
**Qeydiyyat №-si:** D-470
Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin qərarı, İnstitutun Elmi Şurasının protokolu və digər sənədlərə əsasən qurumun hazırkı adı: Azərbaycan Milli Elmlər Akademiyasının Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, hazırkı məqsədi: tarix və etnologiya elmləri sahəsində Azərbaycanın zəngin maddi-mədəni irsinin öyrənilməsinə yönəlmiş fundamental elmi tədqiqatların təşkili və aparılması, qanuni təmsilçisi Şükürov Kərim Kərəm oğlu olmuşdur
**Dəyişiklik:** 26.08.2024-cü il tarixdə qeydə alınıb

### ELAN

22.11.2021-ci il tarixdə 1121-Q77-3970 nömrə ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmış "Azərbaycan Demokratiya və Rifah" ictimai birliyi ləğv olunduğunu elan edir. Kreditorlardan xahiş olunur ki, bu elan dərc olunduqdan sonra 60 gün ərzində quruma olan tələblərini aşağıda göstərilən ünvana bildirsinlər: Bakı şəhəri, Səbail rayonu, 1-ci Neftçilər döngəsi, ev 2, mənzil 1.

**Təsisçi:**
Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
**Buraxılışa məsul:**
Rasim Həsənov

**Ünvan:**
Bakı-AZ 1073. İnşaatçılar pr-ti, 1.
Tel: 537-06-40
Faks: 498-59-31

Qəzetdə qeyri-kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatlar dərc olunur.
Qəzet ayda bir dəfə çıxır.

Reyestr N 769